# "Ekol Mühəndislik Xidmətləri" "Neftçilər günü"nə öz layiqli töfhələrini vermişdir

**Əlverişli coğrafi məkana və zəngin təbii resurslara malik olan ölkəmiz daim dünyanın diqqət mərkəzində olub. Zaman keçdikcə bu maraq artaraq Azərbaycanın iqtisadi imkanlarının daha da genişlənməsinə yol açıb. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" deyən ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə digər istiqamətlərdə olduğu kimi iqtisadi sahədə də inkişafın əsası qoyuldu.**

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gərgin səylərinin nəticəsi olaraq, 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 11 transmilli şirkətinin iştirakı ilə şanlı tariximizə "Əsrin müqaviləsi" adı ilə düşmüş qlobal neft müqaviləsinin imzalanması müstəqil Respublikamızın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu.**

**Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın yeni neft strategiyası ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və iqtisadiyyatımızın dinamik inkişafına güclü təkan vermiş bu strategiya Azərbaycanı ən sürətlə irəliləyən ölkələr sırasına çatdırmışdır. Gün-gündən müasirləşən şəhər və kəndlərimizin siması bu davamlı yüksəlişi əks etdirir.**

"Əsrin müqaviləsi"nin imzalanmasından ötən 21 il Azərbaycanın neft-qaz sənayesinin, bütövlükdə iqtisadiyyatımızın inkişafı, ölkəmizin dünyada böyük nüfuz qazanması, etibarlı tərəfdaşa çevrilməsi, hər bir Azərbaycan vətəndaşının sosial rifahının yüksəlməsi ilə əlamətdar olmuşdur. Prezident İlham Əliyevin dediyi kimi, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın uğurlu inkişafından söhbət gedə bilməzdi. "Neft sənayesi uzun illər bundan sonra da Azərbaycanın uğurlu inkişafını təmin edəcəkdir".

Bu gün ölkəmizin neft-qaz sənayesinin flaqmanı olan SOCAR, yeni neft strategiyasından irəli gələn vəzifələrin yerinə yetirilməsi, neft və qaz hasilatının artırılması, respublikamızda və xarici dövlətlərdə neft emalı sənayesinə sərmayələrin qoyulması ilə yanaşı, iri maliyyə tutumlu sosial və ekoloji layihələri də uğurla həyata keçirir.

Ötən dövr ərzində QSC ölkə başçısının 28 sentyabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair Kompleks Tədbirlər Planı"nı və SOCAR-ın Ekoloji Siyasətini özünün fəaliyyət proqramı kimi qəbul edərək, üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirir.

Yeni neft strategiyasının həyata keçirilməsi bütün sahələrdə olduğu kimi, "Ekol Mühəndislik Xidmətləri" QSC-nin də inkişafına və fəaliyyət sahələrinin genişlənməsinə böyük təkan vermişdir.

SOCAR-ın fəaliyyət sahələrində prioritet ekoloji layihələr həyata keçirən "Ekol Mühəndislik Xidmətləri" QSC də hər il olduğu kimi, bu il də 20 sentyabr – Neftçilər günü ərəfəsində böyük nailiyyətlər əldə etmişdir.

2015-ci ilin müvafiq dövründə QSC-nin "Sifarişçi" təşkilatları olan SOCAR-ın H.Əliyev adına Neft Emalı Zavodu, Qaz Emalı Zavodu, Ekologiya və Neft Kəmərləri idarələri, FHN-in Qəzaxilasetmə xidməti, "Azərbaycan Xəzər Dəniz Gəmiçilik" QSC, "AA Services", "AAS-ATE" MMC, "Suraxanı OYL Opereyşn Kompani S.A." Şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi, Balakhany Oil Operation Company Ltd, Azgerneft MMC, "AAS-Ekol" MMC və digər təşkilatlardan qəbul edilmiş müxtəlif növ tullantılar (şlam, neftşlam, yağlı su və torpaq, məişət-təsərrüfat çirkab, axıntı suları, neftli-yağlı və mexaniki qarışıqlı tullantılar və s.) Tullantıların Emalı Departamenti (TED) tərəfindən texnoloji reqlamentə uyğun təmizlənərək zərərsizləşdirilmişdir.

QSC-nin Torpaqların Rekultivasiya Departamenti (TRD) tərəfindən SOCAR-ın fəaliyyət sahələrində çirklənmiş torpaq sahələri təmizlənmiş, həmin ərazilərdə landşaftın bərpası təmin olunmuş və yaşıllıqlar salınmışdır. Eyni zamanda, SOCAR-ın "Azneft" İB-nin "H.Z.Tağıyev", "Abşeronneft" və "Bibiheybətneft" NQÇİ-nin mədən ərazilərində ümumilikdə 68063 ədəd, eləcə də Qaz Emalı Zavodunun ərazisində ümumilikdə 11877 ədəd müxtəlif növ ağac və bəzək koluna yüksək səviyyədə aqrotexniki xidmətlər göstərilmişdir. "Ekol Mühəndislik Xidmətləri" QSC-nin Ekoloji Monitorinq Departamenti (EMD) 2015-ci ilin müvafiq dövründə normativ-texniki sənədlərin işlənib hazırlanması sahəsində xeyli iş görmüş və vəzifə öhdəliklərini layiqincə yerinə yetirmişdir. EMD-nin Kompleks Tədqiqatlar Laboratoriyası (KTL) fasiləsiz olaraq sifarişçilərin və QSC-nin istehsalat sahələrindən götürülmüş nümunələrin üzərində analitik təhlillər aparmış, fiziki-kimyəvi və kimyəvi analizlərin nəticəsinə uyğun olaraq hesabatlar hazırlanaraq sifarişçilərə təqdim olunmuşdur.

QSC 2015-ci ilin müvafiq dövründə "Sabunçu rayon ərazisində Bakı Olimpiya İdman Kompleksinin tikintisi ilə əlaqədar ayrılmış ərazidən fekal suların kənarlaşdırılması" və "Bakı Ağ Şəhər" layihəsinin "Yaşıl ada" bölgəsində köhnəlmiş neft sənaye obyektlərindən neftşlamın çıxarılması, anbarlaşdırılması və ərazidəki neftlə çirklənmiş torpaqların təmizlənməsi" layihələrinin icrasını da uğurla həyata keçirmişdir.



2015-ci ildə "Ekol Mühəndislik Xidmətləri" QSC və Türk Standartları İnstitutunun tədqiqatçıları ilə birgə Beynəlxalq İdarəetmə Sistemlərinin (BİS) tələblərinə əməl olunması və bu standartların dərindən mənimsənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Dövri olaraq aparılan daxili auditlər nəticəsində aşkar edilmiş uyğunsuzluqların qısa zamanda aradan qaldırılması üçün qabaqlayıcı tədbirlər görülərək, BİS-nin tələblərinə əməl olunmasının düzgünlüyünün yoxlanılması məqsədilə nəzərdə tutulmuş vaxtlarda üçüncü tərəf (xarici) auditləri keçirilmişdir. "Ekol Mühəndislik Xidmətləri" QSC Azərbaycanda İSO 9001, İSO 14001 və OHSAS 18001 Beynəlxalq İdarəetmə Sistemlərini qəbul edən və onun tələblərini uğurla həyata keçirən nümunəvi şirkətlərdən biridir. 2015-ci ildə, qarşılıqlı əməkdaşlıq çərçivəsində QSC-nin xarici əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi sahəsində də məqsədyönlü tədbirlər həyata keçirilir. Bu dövrdə Türkiyənin "AKGİRİŞİM", Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Black Gold LLC", Rusiyanın "Bentizol", Almaniyanın "Mena ater", NANOPROTECH şirkətinin ACP GROUP nümayəndələri, Amerikanın OSEİ-Oil Spill Eater İnternational Gorp şirkətləri ilə, eləcə də dünyanın inkişaf etmiş dövlətlərində fəaliyyət göstərən bir çox analoji şirkətlərlə əməkdaşlıq əlaqələri yaradılmış və bu dövlətlərə qarşılıqlı işgüzar səfərlər təşkil olunmuşdur. Hazırda QSC-nin xarici əlaqələrinin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Cari ildə QSC-də texnoloji proseslərin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi, istehsalat obyektlərində və inzibati binalarda əsaslı təmir-quraşdırma işlərinin aparılması diqqət mərkəzində olmuşdur. Xeyli sayda xüsusi texnika, nəqliyyat vasitələri, qurğu və avadanlıqlar alınmış, kifayət qədər əsaslı təmir-tikinti işləri yerinə yetirilmişdir.

2015-ci ilin müvafiq dövründə özünün fəaliyyət sahələrinin genişləndirilməsi və maddi-texniki bazasının gücləndirilməsi sahəsində də əsaslı işlər görmüş QSC, ölkəmizdə həyata keçiriləcək ekoloji layihələrin icrası istiqamətində əzmlə çalışaraq özünün güclü potensial və müasir imici olan bir şirkətə çevrilməsini qarşıya məqsəd qoymuşdur.

**Ramil ƏLİYEV,**
**"Ekol Mühəndislik Xidmətləri" QSC-nin baş direktoru.**